QUSAR KЦIAP
İCTİMAİ-SİYASİ QƏZET • ИЖТИМАИ-СИЯСИ ГАЗЕТ
gusarpress.com
Qəzet 1932-ci ildən çıxır
28 aprel 2020-ci il
№ 5 (7646)
TƏSİSÇİ: QUSAR RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ APARATI VƏ REDAKSİYANIN KOLLEKTİVİ

# Prezident İlham ƏLİYEV: Bütün Azərbaycan xalqını həmrəyliyə, məsuliyyətə dəvət edirəm. Əminəm ki, biz birlikdə bütün sınaqlardan üzüağ cıxacağıq!

Ötən ilin sonlarından etibarən özünü biruzə verən yeni növ koronavirus (COVİD-19) sürətlə yayılmağa başladı və demək olar ki, bütün dünyanı bürüdü. 2020-ci ilin mart ayından Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən dünyada pandemiya elan olunub. Artıq uzun müddətdir ki, bu gözəgörünməz qüvvə insan canı almaqda davam edir. Azərbaycan da bu dəhşətli virusla mübarizə aparır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkə ərazisində koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə kompleks tədbirlər həyata keçirilir.

Hazırda əksər dövlətlərdə karantin rejimi tətbiq olunsa da, mövcud məhdudiyyətlər sanitar-epidemioloji vəziyyətə uyğun olaraq yumşaldılır, karantin rejimindən mərhələli çıxış mexanizmləri tətbiq edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 aprel tarixli, 144 saylı qərarı ilə ölkə ərazisində tətbiq olunan xüsusi karantin rejiminin müddəti uzadılıb. COVİD-19 virusu ilə bağlı hazırkı sanitar-epidemioloji vəziyyət, xüsusilə də xəstəliyin yayılma dinamikası və coğrafiyası, karantin zonalarındakı şəxslərin sıxlığı, onlar arasında virusa yoluxma halları təhlil edilib və 2020-ci il 27 aprel tarixindən məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verilib. Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatında bildirilir.

***Əziz oxusular!*** ***Pandemiya ilə bağlı elan olunan məhdudiyyətlər ucbatından qəzetimizin hazırlanaraq səhifələnmiş 5-6 saylarını çapa verməyə macal tapmadıq. Ötən müddət ərzində həmin saylardakı yazıların əksəriyyəti öz aktuallığını itirdiyindən onları dərc etməyi gərəkli bilmədik.***

***"Qusar" maliyyə və texniki səbəblər üzündən mütəmadi çap olunmadığından redaksiyamız bir sıra yenilikləri, pandemiya ilə bağlı məlumatları kağız formatında operativ çatdırmaq imkanında deyil. Belə xəbər və məlumatlarla qəzetimizin vebsaytında (gusarpress.com.), eləcə də feysbukdakı qrupumuzda (Qusar KЦIap) tanış ola bilərsiniz.***

# BİZ BİRLİKDƏ GÜCLÜYÜK!

Biz Birlikdə Güclüyük

Koronavirus pandemiyasının dünya ölkələri arasında sürətlə yayılmasını nəzərə alaraq, bununla mübarizə məqsədilə dövlətlər tərəfindən zəruri addımlar atılır. Azərbaycan hökuməti də öz vətəndaşlarnı bu virusdan qorumaq məqsədilə təxirəsalınmaz və çevik tədbirlər həyata keçirir. Əlaqədar hökümət strukturları öz fəaliyyət sahələrinə uyğun olaraq respublika ərazisində Ümumdünya Səhiyyə Təşkilatının və Nazirlər Kabineti yanında yaradılmış Opreativ Qərargahın tövsiyə və təlimatlarına uyğun olaraq, əhali arasında lazımi maarifləndirici işləri aparır və həmçinin bütün profilaktik tədbirləri həyata keçirir.

Bir sıra ölkələrdə dərin iqtisadi və sosial böhran yaşanmasına baxmayaraq, Prezident İlham Əliyevin bütün dünya üçün gözlənilməz olan belə bir pandemiya dövründə böhranın idarəedilməsi, xüsusən də vətəndaşın sağlamlığını və sosial təminatını üstün tutan uğurlu siyasəti dövlətlər üçün təqdirəlayiq nümunəyə çevrilib.

Heç təsadüfi deyil ki, dövlət başçısının pandemiyanın fəsadlarının azaldılması istiqamətindəki bütün çağırışlarına vətəndaşlar da müsbət cavab verirlər və həmrəylik nümayiş etdirirlər. Hökumətin həssas sosial qrupdan olan vətəndaşlar üçün icra etdiyi müxtəlif tədbirlərdən əlavə ayrı-ayrı imkanlı şəxslər, iş adamları, sahibkarlar tərəfindən ehtiyacı olan ahıllara, tənha yaşayan şəxslərə və aztəminatlı ailələrə yardımlar edilir. Azərbaycan hökuməti isə həm iqtisadi sahədə, həm də sosial problemlərin həllində, vaxtında və çevik tədbirlər həyata keçirib.

Karantin dövründə vətəndaşların Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargahın tələb və tövsiyələrinə əməl edilməsi üçün əhalinin maarifləndirilməsi məqsədilə rayon üzrə 32 mobil qrup yaradılmışdır. Rayon icra hakimiyyətinin işçilərindən, şəhər, qəsəbə, kənd icra nümayəndələrindən və polis əməkdaşlarından ibarət mobil qruplardan 4-ü Qusar şəhərində, 28-i qəsəbə və kəndlərdə sakinlərin karantin rejiminə əməl edilməsi ilə bağlı maarifləndirici və təbliğat işləri aparmışdır.

Bundan əlavə 65 yaşdan yuxarı tək və kimsəsiz vətəndaşlara sosial xidmətlərin göstərməsi süçün 21 mobil qrup təşkil edilmişdir. Bu qruplara DSMF-nun 21 işçisindən əlavə nümayəndəliklərin və bələdiyyələrin 32 nəfər işçisi cəlb edilmişdir.

Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə karantin günlərində yaşlı və imkansız insanlara yardımlar edilmişdir. "Asnaf Sənaye Şirkəti"nin, "Rus-Azeri Spirts" MMC-nin, "Pioneer" firmasının, suvarma sistemləri idarəsinin, Aqrar İnkişaf Mərkəzin, telekommunikasiya qovşağının, polis idarəsinin, mədəniyyət müəssisələrinin kollektivləri, rayonun, demək olar, bütün firma, müəssisə, idarə və təşkilatları xeyirxahlıq aksiyasına fəallıqla qoşulmuş, "Evdə qal" kampaniyası çərçivəsində xüsusi karantin rejimi qaydalarına uyğun olaraq yaşayış yerlərini tərk edə bilməyən tənha və yaşlı insanlara, eləcə də aztəminatlı və çoxuşaqlı ailələrlə əl tutmuş, ərzaq məhsullarından ibarət bağlamalar, tibbi maska və dezinfeksiyaedici vasitələri təqdim etmişlər.

***

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Qusar Rayon Bölməsinin kollektivi pandemiya ilə mübarizə məqsədilə öz missiyasına uyğun olaraq fəal təşkilati iş aprmış, habelə əhalinin ən həssas qrupuna aid olan vətəndaşlara daxili imkanlar hesabına köməklik göstərmişdir.





# İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümü ilə əlaqədar 7600 nəfərə birdəfəlik yardım veriləcək

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2020-ci il 24 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarının növbəti təzahürüdür.***

Sərəncamda İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçılarına 1500 manat məbləğində birdəfəlik maddi yardım verilməsi tapşırılır.

Sənədə əsasən, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına isə 750 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildiriblər ki, cərəncam ümumilikdə 7600 nəfərə şamil olunacaq. Onlardan 264-ü İkinci Dünya müharibəsində iştirakçısı, qalanı İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş və sənəddə nəzərdə tutulan digər müvafiq şəxslərdir.

Sərəncamla birdəfəlik maddi yardımların ödənilməsi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5,9 milyon manat ayrılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Sərəncamın yüksək səviyyədə icrası təmin edilməklə, birdəfəlik maddi yardım İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək.

İkinci Dünya müharibəsi iştirakçılarına və digər şəxslərə hər il Qələbə günü ərəfəsində verilən birdəfəlik maddi yardımın məbləği də mütəmadi artırılır.

Bu istiqamətdə növbəti artım kimi, ötən ilki ilə müqayisədə hazırda həmin şəxslər üçün nəzərdə tutulan birdəfəlik yardımın məbləği də 50 faiz artırılıb.

***AZƏRTAC***

# Fərman, sərəncam və tapşırıqların icrasına nəzarət elektron qaydada həyata keçiriləcək

***Prezident İlham Əliyev dövlət idarəçiliyində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.***

Sərəncama əsasən Prezident Administrasiyasında Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi üçün yeni informasiya sistemi yaradılacaq. Yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyi mütərəqqi dünya təcrübəsinə uyğun əsas səmərəlilik göstəriciləri üzrə qiymətləndiriləcək.

Sərəncama əsasən Prezident Administrasiyası beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, aşağıdakılar barədə təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir: Yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi mexanizminin yaradılması və tətbiqi; Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi üçün səmərəli informasiya sisteminin iş qaydası.

Sərəncamda Nazirlər Kabinetinə dövlət orqanları və qurumları tərəfindən icra intizamına əməl olunması vəziyyətini təhlil etmək və icra intizamının pozulması halları, onlara yol verən dövlət orqanları və qurumları barədə Prezidentə ildə iki dəfə məlumat vermək tapşırılıb.

Sərəncamda deyilir ki, dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində respublikada çoxşaxəli işlər görülməkdədir. Müasir dövrün çağırışlarından biri kimi, dövlət orqanları və qurumlarının fəaliyyətinin səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsi sisteminin mərhələlərlə işlənməsi və tətbiqi dövlətimizin diqqət mərkəzindədir.

Bu baxımdan, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin müasir standartlara uyğun əsas səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsi üçün zəruri sistem hazırlanıb və qəbul edilib.

Aparılan sosial-iqtisadi islahatlar, regionların inkişafına dövlətin göstərdiyi qayğı və diqqət nəzərə alınaraq, regionlarda sosial-iqtisadi inkişafın tamamilə yeni mərhələyə qədəm qoyması məqsədilə digər əməli tədbirlərlə yanaşı, səmərəliliyin qiymətləndirilməsi sisteminin yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə də şamil olunması imkanları təhlil edilməli və ən qabaqcıl dünya təcrübəsinin ölkəmizdə tətbiqinə başlanılmalıdır.

Eyni zamanda, dövlət nəzarətinin təşkili və icra intizamına əməl olunması istiqamətində görülən işlərin səmərəliliyinin artırılmasına, bu sahədə daha əhatəli və çevik mexanizmlər yaradılmasına ehtiyac var.

***AZƏRTAC***

# YEMƏK ÜÇÜN ƏKMƏK LAZIMDIR

***Rayonumuzun kənd əməkçiləri şlərini və yaşamlarını karantin rejiminin tələblərinə uyğun qurublar.***

***Qusar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi Əhmədəli BALAKİŞİYEV yazlıq bitkilərin əkini barəsində məlumat verir:***

–Rayonumuzun kənd əməkçiləri pandemiyaya qarşı birlikdə mübarizə aparırmaqla bərabər, işlərini və yaşamlarını karantin rejiminin tələblərinə uyğun qurublar. İndi aqrotexniki qaydada yazlıq bitkilərin əkini işləri də davam etdirilir. Rayonun təsərrüfatlarında aprelin 1-dək 635 hektar sahədə yazlıq bitkilər əkilib. Bunun 20 hektarını vələmir, 90 hektarını çoxillik bitkilər və 69 hektarını tərəvəz bitkiləri təşkil edir.

Bu günədək əkilən tərəvəz bitkiləri siyahısında çoxluq kartof bitkisinin payına düşür. 456 hektarda əkilən kartof sortlarına görə fərqlənir. Keyfiyyətinə görə Gədəbəy kartofundan heç də geri qalmayan Qusar sortu təkcə respublikamızda deyil, xarici bazarlarda da yaxşı satılır. Becərilmə mexanizmi və məhsuldar və ekoloji təmiz torpaqda əkilməsi kartofumuza tələbatın ilbəil artmasına səbəb olub.

Qusarda bu il ümumilikdə ötən ilin eyni dövrü ilə müqayisədə 112 hektar çox yazlıq bitkilər əkilib. Bunun 2 hektarı tərəvəz bitkilərinə aiddir. 115 hektarı isə kartof bitkisidir. Münbit torpaqda yetişdirilən məhsulun bu il də bol olacağı proqnozlaşdırılır. Qeyd edək ki, Qusarda əkin mütəxəssislərin tövsiyəsi ilə yalnız yararlı sahələrdə aparılır. Bu da məhsuldarlığın artmasına səbəb olur.

Sarımsaq yetişdirməkdə ötən ilin yekunlarından razı qalan qusarlılar bu il həmin məhsulun da əkin sahəsinin artırılmasına qərar veriblər. Belə ki, sarımsaq sahələri 47,6 faiz (42 hektara qarşı 62 hektar) genişləndirilib. Bu məhsulun profilaktik, müalicəvi xüsusiyyətləri qiymətlərin istehlakçılar üçün daha sərfəli olacağı ehtimalını artırır.

Havaların yağışlı keçməsi əkilmiş bitkilərin təbii becərilməsini təmin edən cəhətdir. Yağış suyu ilə suvarılan sahələr daha bərəkətli olur. Bu, həm də təsərrüfat sahibinin məsrəfini azaldır.

Hazırda yazlıq bitkilərin əkini davam etdirilir. Əməkçilərimiz əmindirlər ki, vaxtında aparılan qabaqlayıcı tədbirlər nəticəsində pandemiyayanın fəsadları aradan qaldırılacaq. Tezliklə sahələrdə becərmə dövrü başlayacaq. Sonra kəndli yetişdirdiyi keyfiyyətli məhsulları bazarlara çıxaracaq. Beləcə, həyat öz axarına düşəcək.




# SUYUN HƏDƏR AXIDILMASINA, İSRAFÇILIĞINA, YOL VERMƏK OLMAZ!

***Su israfçılığına yol verməmək, onun hədər axıdılmasının qarşısını almaq, ədalətli bölgüsünə, həm də müqavilə şərtlərinə əməl etmək istehlakçıların borcu olmalıdır.***

Artıq "su həyat mənbəyidir" deyil, "su həyatdır" deyilir. Su qıtlığı yer kürəsində qlobal problemlərdən birinə çevrilib. Son illər ölkəmizdə, rayonumuzda içməli və suvarma suyu ilə bağlı bir sıra layihələr həyata keçirilsə də, problemin köklü şəkildə həll olunduğunu söyləmək olmaz. Problemi doğuran əsas səbəblərdən biri iqlim dəyişikliyidirsə, digər amillər insan faktoru ilə bağlıdır. Belə ki, rayonumuzda, eləcə də qonşu rayonlarda intensiv bağçılığın, tərəvəzçiliyin genişləndirilməsi ilə bağlı suya tələbat kəskin şəkildə artmışdır. İri intensiv bağ massivlərinə malik təsərrüfat sahibləri ilə kiçik fərdi təsərrüfatçılar, kəndlər arasında incikliklər, mübahisələr yaranır.

Qusar Dövlət Aqrar İnkişaf Mərkəzində (DAİM) qarşıdakı suvarma mövsümü ilə bağlı keçirilən geniş müşavirədə suvarma suyu ilə bağlı bir sıra məsələlər müzakirə edilmişdir.

Rayon suvarma sistemləri idarəsi (SSİ) mütəxəssislərin, su istifadəçiləri birlikləri (SİB) başçılarının, yerli İƏD nümayəndələri və bələdiyyə qurumları rəhbərlərinin dəvət aldıqları müşavirədə çıxış edən DAİM-nin direktoru ***Elşad Əlimuradov*** mövsümün uğurla başa çatdırılması, su ehtiyatlarından səmərəli, itkisiz və qənaətlə istifadə olunması, bölgü vaxtı ədalət prinsipinin gözlənilməsi ilə bağlı təklif və tövsiyələrini səsləndirmişdir.

Müşavirədə problemin həlli ilə bağlı tədbirlər planının hazırlanması, operativ qərargahın yaradılması qərara alınmışdır.

Əməkdaşımız qarşıdakı suvarma mövsümünə hazırlıqla bağlı rayon suvarma sistemləri idarəsinin (SSİ) rəisi ***Məzahir Əzizovdan*** da məlumat almışdır. O, demişdir:

-Son illər rayonun su mənbələrində, xüsusilə Samur çayında suyun səviyyəsinin aşağı düşməsi, Qusar çayında azalma hiss olunur. Ekoloji durumla, iqlimlə bağlı bu hal yay aylarında xüsusilə kəskin xarakter alır, nəticədə əhaliyə suvarma suyunun fasiləsiz verilməsində müəyyən çətinliklər yaranır. Digər tərəfdən, torpaq kanallar vasitəsilə suyun uzaq məsafələrə çatdırılması zamanı da xeyli itkilər olur. Bu çətinliyi nəzərə alınaraq rayon rəhbərliyi tərəfindən məsələ qaldırılaraq layihə əsasında 60 kilometrə yaxın torpaq kanallar betonlaşdırılmışdır.

Rayon rəhbərliyinin yerlərdə keçirdiyi səyyar görüşlər zamanı su təminatının yaxşılaşdırılması məqsədi ilə qaldırılmış məsələlərlə əlaqədar olaraq Yuxarı Kalunxür kəndi ərazisində dəyirman arxının təhlükəli ərazisində də 60 p/m qapalı boru xəttinin çəkilməsi, Bədirqala kəndini suvarma suyu ilə təmin edən torpaq kanalın təmir olunaraq üzərində su buraxıcı qurğunun quraşdırılmışı təmin edilmişdir. Rayonun Köhnə Xudat, Köhnə Xudat Qazmaları, Kuzunqışlaq, İmamqulukəndoba və Əcəxüroba kəndləri ərazilərində 5 artezian su quyusu qazılmışdır.

Qarşıdakı illərdə 200 kilometrə yaxın torpaq kanallara beton üzlüyün çəkilməsi üçün yuxarı təşkilatlar qarşısında məsələ qaldırılmışdır. Bundan əlavə Zindanmuruq və Yeni Həyat arxlarında rekonstruksiya işlərin görülməsi nəzərdə tutulmuş, Cağarqışlaq kəndi ərazisində stasionar nasos stansiyasının tikintisi işləri davam etdiriləcək, Zuxul kəndinin həyətyanı və 200 hektardan çox əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədi ilə mənbəyi Tahircal çayı olan uzunluğu 6,2 km. Zuxul arxının başlanğıcında su qəbuledici kameranın tikintisi, 2,5 kilometrdən çox torpaq arxın təmiri, 2,3 kilometrə yaxın arxa beton üzlük çəkilməsi, kiçik həcmli anbarın və nasos stansiyasının tikintisi, 1,3 km. qapalı boru xəttinin çəkilməsi, Qayakənd kəndinin sel sularından mühafizəsi məqsədi ilə Qusar çayında daş-beton bəndlərin quraşdırılması işlərinə başlanacaqdır. 2020-ci ildə həmçinin Qullar, Zindanmuruqqışlaq, Qalacıq (Çoban), Çubuqlu, İmamqulukənd, Qılahoba, Düztahiroba, Zuxuloba kəndlərində 9 artezian quyunun qazılması nəzərdə tutulmuşdur.

Cari mövsümdə su istifadəçilərinin çətinliklərlə üzləşməməyi üçün əlimizdən gələn hər şeyi edəcəyik. Amma burada insan amili, həyatın özü olan sudan istifadə edərkən onun nə qədər qiymətli nemət olduğunu heç kəs yaddan çıxarmamalıdır. Su israfçılığına yol verməmək, onun hədər axıdılmasının qarşısını almaq, ədalətli bölgüsünə, həm də müqavilə şərtlərinə əməl etmək istehlakçıların borcu olmalıdır.

***"QUSAR"***






# MÜƏLLİMLƏR MÜƏLLİMİ

Təbrik edirik!



**Müəllimlik** yer üzündə ən müqəddəs və şərəfli peşələrdən biridir. Çünki müəllim hər bir dövlətin başlıca strateji məsələləri ilə məşğul olur, ölkənin gələcəyi sayılan gənc nəsli cəmiyyət həyatına, ictimai fəaliyyətə hazırlayır. Görkəmli Azərbaycan maarifçisi Sultanməcid Qənizadənin sözləri ilə desək "bağ bağbansız ola bilmədiyi kimi, bəşəriyyət də müəllimsiz keçinə bilməz".

Peşəsinə qəlbən bağlanan müəllimlər həmişə şagirdlərin sevimlisi olur, heç vaxt unudulmur və özlərinin ən gözəl keyfiyyətləri ilə daim şagirdlərin qəlbində yaşayırlar. Belə müəllimlərdən biri də Qusar Peşə Liseyində çalışan, 70 illik yubileyini bu yaxınlarda təntənə ilə qeyd etməyə hazırlaşdığımız Malik Ataşovdur.

Həyatının 47 illik bir dövrünü balalarımızın savadlanması kimi son dərəcə vacib işə- müəllimlik sənətinə həsr etmiş Malik müəllim olduqca şərəfli bir ömür yolu keçmişdir. 70 illik yubileyi ərəfəsində onun tərcümeyi halına birdə nəzər yetirsək, tam əminliklə deyə bilərik ki, qazandığı mükafatlara, eləcədə sevgi və məhəbbətə görə rayonumuzda onunla müqayisə edilə biləcək müəllimlər çox deyil. Onun qəlbində şagird dünyası, qarşılıqlı ünsiyyət, insani hisslər olduqca güclüdür. Təcrübəli pedaqoq hər bir şagirdin iç aləminə nüfuz etməyi, qəlbinə acar tapmağı bacarır.

Qeyd edək ki, hər bir müəllimin özünəməxsus dərs üslubu, metodu, dəst- xətti olur. Bu baxımdan Malik müəllimin dərsləri orijinaldır, canlıdır. O, hərtərəfli biliyə malik, onu şagirdlərə öyrətməyə çalışan və bacaran müəllimdir.

Malik 1950- ci ildə Cibir kəndində doğulmuş, orta məktəbi Əli-Bayramlı (indiki Şirvan) şəhərində qurtardıqdan sonra Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə daxil olaraq 1973-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Əmək fəaliyyətinə şəhər 3 saylı orta məktəbində ingilis dili müəllimi olaraq başlayan Malik Ataşov 1975-ci ildən etibarən taleyini şəhər internat məktəbinə bağlamış və 1980-ci ildən bəri 40 ilə yaxın bir dövrdə dərs hissə müdiri vəzifəsində çalışmışdır. 2012-ci ilin sonunda internat məktəbi bağlanaraq onun bazasında Qusar Peşə Liseyi yaranır. Amma Malik müəllim dərs hissə müdiri vəzifəsində işləməkdə davam edir.

İnternat məktəbinin 1970-ci illərdə SSRİ Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif edilməsində Malik müəllimin böyük əməyi olmuşdur. O, dəfələrlə RİHB-nın, RTŞ-nin fəxri fərmanlarına layiq görülmüşdür. Rayonun qabaqçıl təhsil işçilərindən biri kimi Malik müəllim uzun illər RTŞ-nin ingilis dili üzrə metidbirləşməsinin rəhbəri olmuşdur. Malik müəllim Qusar Dövlət Pedoqji kollecində işlədiyi dövrdə yetişdirdiyi yüzlərlə ingilis dili müəllimi və 12 nəfər ali təhsilli müəllimin uğurları ilə qürurlanır. Onun yetirmələrinin sorağı indi xarici ölkələrin təhsil ocaqlarından, səfirliklərindən gəlir.

Malik müəllim 2009-cu ildə Dayaq məntəqələrinin rəhbərləri üçün təşkil olunmuş "Öyrədənlərin öyrədilməsi" proqramı üzrə üç mərhələli təlim kursunu bitirmiş və ona "Müəllimlərin müəllimi" statusu verilmişdir. Yubilyarımız bacarıqlı və qayğıkeş müəllim kimi kollektivin dərdinə qalan geniş ürək sahibidir, nüfuzlu ziyalıdır, yorulmaz maarif fədaisidir.

Bütün bunlarla bərabər fəxr duyur ki, həyatda ən böyük uğuru həmkarı Rəfiqə xanımla qurduğu xoşbəxt ailə, böyüdüb ərsəyə çatdırdıqları, təhsil verib ailə sahibi etdikləri övladlarıdır. Malik müəllim dörd qız atasıdır. Sevinc, Bella, Laura və Samirə. Tibb bacısı olan Sevinc xanımdan başqa qalan qızları valideynlərinin yolunu gedərək müəllimliyə yiyələniblər. Samirə xanım isə bir vaxtlar atasının imtina etdiyi elm yolunu seçib. Həyat yoldaşı ilə ABŞ-da yaşayan Samirə Arizona Universitetinin ingilis və ispan dilləri fakultəsini bitirib, orada tərcüməçi işləyir.

Ömrünün ən mənalı illərini uşaq aləmində-məktəbdə keçirən müəllimin evinə yeddi nəvə ayaq acıb, onun baba olma şərəfinə qovuşdurub.

Sadə və təvazökar, öz şərəfli peşəsi və həyat yolu ilə çoxlarına örnək vətəndaş, insan sorağı ilə gələcəyə uzanan paklıq yolunun yolçusu olan Malik müəllimə uzun ömür, cansağlığı arzulayırıq. 70 illik yubileyin mübarək, əziz dost, xoşbəxtlik, ailə səadəti nəsibin olsun!

*Qusar Peşə Liseyinin kollektivi adından: direktor İmaməddin ZƏKİYEV*

# Meşələr bizim agciyərimizdir!

***Qusar Rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları keçirdikləri yazqabağı təmizlik aksiyasını belə adlandırdılar.***





**Duyarlı** insanları təbiəti, meşələrimizi təmiz saxlamağa, daha doğrusu, evin və yaxud istifadəsindəki müəssisələrin tullantıları üçün meşələri zibil qabına cevirməməyə çağırırıq.

Rayon Kommunal Təsərrüfatı İdarəsinin rəhbərliyinə cağırışımıza cavab verdiklərinə görə təşəkkür edirik. Tullantıları meşəyə atan vətəndaşlara daha ciddi şəkildə xəbərdarlıq olunacaq. Bu gün meşənin ayrı bir zolağında təmizlik işləri aparıldı. Lakin bu işə texnika da cəlb olunmalıdır.

Artıq on ildən yuxarıdır ki, biz Qusarımızın təmiz küçələri ilə oyünürük. Şəhərimizin bu etalonu bir nümunədir. Bakıdan Qusarın artıq girişinə çatanda yamyaşıl küknar ağacları bizi qarşılayır. Bu mənzərə hər birimizə çox doğmadır. Gəlin, boynubükük bənovşələrimizi də çirkabdan birlikdə xilas edək. Biz təmiz küçə, təmiz məhəllə, təmiz meşə, təmiz hava statusumuzu sonadək qoruyacağıq.

Qusar respublikamızın ən səliqəli rayonlarından biri hesab olunur. Şəhərin təmizliyi üçün mübarizədə insanlarda ictimai qınaq formalaşıb. Artıq üzü yaza doğru gedirik. Meşələrimizin təmizliyi üçün müxtəlif aksiyalar keçirmək niyyətindəyik. İlk növbədə hər kəs öz ətrafına nəzər salmalı, keçmişdən miras qalan iməcilik keçirmək ənənəsini dirçəltməliyik.

Biz-Qusar Rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları ətrafdakı meşə ərazisində bu işə start vermişik. Qoşulun, dostlar!

*Lalə SADİROVA*

**Redaksiyadan:** ***mərkəz əməkdaşlarının təşəbbüsü indiki-dünyamızın koronavirus kabusu ilə üz-üzə qaldığı məqamda daha aktualdır. Bəlkə ana təbiət bizi ətraf mühitə səhlənkar, ögey münasibətə görə sərt sınaq qarşısında qoyub? Əsrlərdir yerin təkini də, üstünü də istismar edirik, dəniz və çaylarımızı, su mənbələrimizi, meşələrimizi qayğı ilə qorumuruq. Bəlkə özümüzə gələk, anlayaq, övladlarımızın, nəvələrimizin payına əl qoyduğumuzun fərqində olaq?***

***BAŞLANĞIC-hər yerdə təmizliyin, sanitariyanın bərpası, qorunması, özü də təkcə ev, küçə və həyətlərimizin deyil, ümumiyyətlə ətraf aləmin qorunması olmalıdır!***

# Dilçilik elminə yeni töhfə

Kitab rəfi




**Müasir** Azərbaycan ədəbi dilinin getdikcə daha da zənginləşdiyi bir vaxtda dövrün leksikasını əks etdirən yeni ikidilli lüğətlərin hazırlanması son dərəcə vacibdir. Respublikamız müstəqillik qazandıqdan sonra digər sahələrdə olduğu kimi, dilçilik sahəsində də böyük inkişaf vardır. Bu müddət ərzində Azərbaycan dilinin lüğət tərkibi xeyli zənginləşmişdir. Azərbaycan və ləzgi dilçiliyində ilk təşəbbüs olaraq tərtib edilmiş və bu günlərdə "Azərbaycan" nəşriyyatı tərəfindən nəfis tərtibatla nəşr olunmuş **"Azərbaycanca-ləzgicə lüğət"** məhz dilçilik sahəsindəki son nailiyyətlər nəzərə alınmaqla hazırlanmışdır.

Beş il ərzində hazırlanmış yeni lüğətin tərtibçiləri 2015-ci ildə "Ləzgicə-azərbaycanca lüğət"i çap etdirmiş qələm sahibləri Sədaqət Kərimova və Müzəffər Məlikməmmədovdur. Lüğətə Rusiya Təbii Elmlər Akademiyasının akademiki, filologiya elmləri doktoru, professor Əhmədulla Gülməhəmmədov, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının akademiki, pedaqoji elmlər doktoru, professor Əjdər Ağayev və filologiya elmləri doktoru Faida Qəniyeva rəy vermişlər.

Geniş oxucu kütləsinə təqdim olunan "Azərbaycanca-ləzgicə lüğət" bu sahədə ilk böyük nəşrdir. Yeni lüğət öz qarşısına Azərbaycan dilini öyrənənlərə, habelə Azərbaycan dilindən ləzgi dilinə tərcümə ilə məşğul olanlara kömək etmək məqsədi daşıyır. Lüğətin Azərbaycan ədəbi dilinin sözlərini araşdıranlara da köməyi olacaqdır.

Yeni lüğət tərtib edilərkən 1950-ci ildən indiyədək nəşr olunmuş rusca-azərbaycanca, rusca-ləzgicə, həmçinin azərbaycanca-rusca, ləzgicə-rusca lüğətlərdən, həmin dillərdə çapdan çıxmış orfoqrafiya lüğətlərindən və izahlı lüğətlərdən istifadə olunmuşdur.

Lüğətə əsasən müasir Azərbaycan ədəbi dilinin leksikası daxil edilmişdir. Həmçinin burada keçmiş dövrlərə aid bədii ədəbiyyatda təsadüf edilən bir çox sözlər (klassik ədəbiyyatda işlənən sözlər, elmi və texniki terminlər, məhəlli sözlər və s.) də öz əksini tapmışdır. Çox az işlənən yaxud da heç işlənməyən bir sıra sözlər, eyni zamanda müasir ədəbi dildə işlənən, lakin dilin saflığına xələl yetirən, onun qanunları ilə uzlaşmayan sözlər lüğətə daxil edilməmişdir.

Lüğətdə Azərbaycan dilində işlənən idiomatik ifadələrə, frazeoloji tərkiblərə geniş yer ayrılmışdır. Onların ləzgicə müvafiq qarşılığı, bu kimi qarşılıq olmadıqda isə izah şəklində tərcüməsi verilmişdir.

Bütün Azərbaycan sözlərinin yanında nitq hissələrini göstərən qrammatik işarələr, lazım gəldikdə, sözlərin hansı sahədə işləndiyini bildirən stilistik və s. işarələr qoyulmuşdur.

Təqdim olunan lüğət əsasən tərcümə lüğətidir. Buna baxmayaraq, izahlı lüğət ünsürləri də saxlanmışdır.

Azərbaycan oxucusuna ləzgi əlifbası, dili və xalqı haqqında daha geniş məlumat çatdırmaqdan ötrü lüğətə ilk dəfə olaraq "Ləzgi dili", "Ləzgi əlifbası tarixindən" və "Ləzgilər" adlı oçerklər daxil edilmişdir. Lüğət Azərbaycan və ləzgi dillərini öyrənənlərə böyük töhfədir.

*"Samur" qəzetindən*

# Ruslan Şərafəddin oğlu Qurbanov



Rayon səhiyyəsinə ağır itki üz vermişdir. Bacarıqlı səhiyyə işçisi Ruslan Şərafəddin oğlu Qurbanov ömrünün 56-cı ilində vəfat etmişdir.

Ruslan Qurbanov 1964-cü il iyunun 1-də Yasab kəndində anadan olmuşdur.

Orta məktəbi bitirib bir il təsərrüfatda işlədikdən sonra ordu sıralarında xidmət etmişdir. Həkim olmaq, insanlara şəfa vermək arzusu ilə 1985-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakultəsinə daxil olmuşdur.

1992-ci ildə institutu bitirib Qusar Mərkəzi Rayon Xəstəxanasında 1 il interna keçmiş, 1993-cü ildən ömrünün sonuna kimi isə bu səhiyyə ocağında həkim-okulist kimi işləmişdir.

Ruslan həkim bir ziyalı, göz həkimi kimi sadə vətəndaşlar, tibb işçiləri arasında hörmət və nüfuza malik idi.

Mehriban ailə başçısı, qayğıkeş ata olan həmkarımızın iki oğul, bir qız övladı yadigar qaldı.

Ruslan həkimin yoxluğu doğmaları, dostları, həmkarları ilə yanaşı bütün onu tanıyanları, xüsusilə də onun sayəsində şəfa tapanları kədərləndirir.

Həyatının 27 ilindən çoxunu əhalinin sağlamlığına həsr etmiş Ruslan Qurbanovun işıqlı və nurlu xatirəsi hələ uzun illər onu tanıyanların və sevənlərin yaddaşından silinməyəcək.

Allah rəhmət eləsin.

*Qusar Mərkəzi Rayon Xəstəxanasının rəhbərliyi, səhiyyə işçiləri həmkarlar ittifaqının rayon şurası*

# ХЦИ ХАЙИ ХУЬРУЬКАЙ КХЬЕНА

Ктабрин тIакI




"**Алатай** девирдал вуна тапанчидай гьулле ахъаяйтIа, къведай девирди вун тупунай ягъада!"-лугьудай гафар авайди я!

ИкI кхьенва Вакъиф Гьажагьаеван **"Бубайрин Ватан Хьилар-Ata ocağım Hil"** ктабдикай вичин сифте гафуна и ктабдин редактор, БДУ-дин муаллим, физикадинни математикадин илимрай философиядин доктор Бенямеддин Давудова.

Хьайи-тахьай крар рикIелай алудун гьар са халкьдин, миллетдин кIвечIи (усал) лишанрикай сад я.Жуван хайи чкайрин къадир течидай касдиз Ватандин къадир жедай туш. Чна и гафар чешне хьиз кьуртIа, Вакъиф Гьажагьаева (Муьшкуьрвиди) кхьена куь вилик эцигнавай "Бубайрин Ватан Хьилар-Ата ocağım Hil" тIвар алай этнографик эсердихъ тарихдин ва чирвилин рекьяй чIехи мас (къимет) ква. Авторди и ктабда хуьруьн тарихдикай, хуьруьн жемятдикай, абурун адетрикай, майишатдин уьмуьрдикай, мектебрикайни вини дережада кIелнавай ксарикай, ихьтин ксари чи республикадиз гайи хийирдин крарикай гегьеншдаказ ихтилатзава. Ктаб кIелзавай гьар са касдивай республикадин чIехи ва къадим хуьрерикай сад тир Хьиларикай, хуьруьн зегьмет кани инсанрикай, гьакIни инай акъатнавай алим ва кхьирагрикай малуматар къачуз жеда.

Им Вакъиф муаллимдин садлагьай ктаб туш. Ам кIелчийри ашкъидалди кьабулнавай са цIиргъ шииррин, гьикаяйрин авторни я. Ада 2008-йисуз "Зи рикIин тIалар" (лезгидал), 2013-йисуз "Лезги поэзиядин антология" (лезги ва азербайжан чIаларал) тIвар алай ктабар чапдай акъуднава. Вакъиф Гьажагьаеван цIийи ктаб кьве чIалал-лезги ва азербайжан чIаларал-кхьини кIелдай ксар лезги литература ва культурадихъ галаз мукьувай танишарда.

*"КЦIАР"*

## Dərmanlama tədbirləri aparılacaq

Balaqusar İƏD-nin əhatəsindəki kəndlərin ərazilərində gəmirici və ziyanvericilərə qarşı kimyəvi mübarizə məqsədi ilə taxıl sahələrində, meyvə bağlarında dərmanlama tədbirləri aparılacaqdır.

Mal-qara və ev quşları arasında tələfat olarsa, cavabdehlik daşımırıq.

*Balaqusar İƏ Nümayəndəliyi*

## Dərmanlama tədbirləri aparılacaq

Qusar rayonun bütün kəndlərinin ərazilərində siçanabənzər gəmiricilərə qarşı kimyəvi mübarizə məqsədi ilə taxıl sahələrində, meyvə bağlarında dərmanlama tədbirləri aparılacaqdır.

Mal-qara və ev quşları arasında tələfat olarsa, cavabdehlik daşımırıq.

*Qusar Rayon Bitki Mühafizə Mərkəzi*

## Qusar rayonunda vətəndaşlara məxsus qeydiyyat sənədləri və ya dövlət qeydiyyat nişanları itirilmiş kənd təsərrüfatı texnikası

| S/N | Vətəndaşın adı soyadı atasın adı | Ünvanı | Texnikanın adı | Markası | Qeydiyyat sənədi | Dövlət qeydiyyat nişanı |
|---|---|---|---|---|---|---|
| 1 | Ağamirzəyev Şahmirzə Ağamirzə | Şirvanlı | Taxılsəpən | SZU-3,6 | QT №389213 | __ |
| 2 | Yunusov Maarif Mirzəli | Balaqusar | kartofçıxaran | KDU-1 | QT №389113 | __ |
| 3 | Mirzəliyev Edgar Şəkə | Qalacıq | Taxılsəpən | SZU-3,6 | QT № 389241 | __ |
| 4 | Pənahova Xavər Nazim | Köhnə xudat | Taxılsəpən | SZU-3,6 | QT № 389128 | __ |
| 5 | Əhmədov Alik Mirzəbala | Kufoba | Koton | PLN 4-35 | QT № 389212 | __ |
| 6 | İsayev Namiq Qəlib | Qilahoba | Traktor | ALTAY T-4 A | TŞ № 16966 | Az 38T- 445 |
| 7 | Abdullayeva Gülbəs Nəzər | Üzdənoba | Traktor | DT-75M | TŞ № 7322 | Az 38T-066 |
| 8 | Cabbarov Tərlan Şahbala | Həsənqala | Otpresləyən | PPL-F-1,6 | QT №389238 | __ |
| 9 | Daşdəmirov Vidadi Nizaməddin | Köhnəxudat | Otpresləyən | PPL-F-1,6 | QT №389130 | __ |
| 10 | Əlisultanov Əsməddin Əlisultan | Piral | Çiləyici | OPV-2000 | QT №389094 | __ |
| 11 | Əlisultanov Əsməddin Əlisultan | Piral | Mala | BDT-3,0 | QT №389093 | __ |
| 12 | Ağakərimov Vaqif Ağakərim | Quxuroba | Kotan | PYA3-35 | QT №389088 | __ |
| 13 | Ağakərimov Vaqif Ağakərim | Quxuroba | Taxılsəpən | SZU-3,6 | QT №389087 | __ |
| 14 | Ağakərimov Vaqif Ağakərim | Quxuroba | Mala | BDT-3,0 | QT №389086 | __ |
| 15 | Ağakərimov Vaqif Ağakərim | Quxuroba | Mala | BDT-3,0 | QT №389085 | __ |
| 16 | Fətullayev Qubaşah Asəf | Quxuroba | Koton | PLN 4-35 | QT №389076 | __ |
| 17 | Çobanov Şahlar Şahzadə | Kufoba | Çiləyici | OPV-2000 | QT № 389198 | |
| 18 | Atluxanov Aydəmir Daşdəmir | Yuxarı Kalunxür | Traktor | DT-75M | TŞ № 3480 | AU-3475 |
| 19 | Əzizov Yuzəmməd Yarmətoviç | İmamqulukənd | Taxıl kombayn | SK-5 M 1 | TŞ № 10611 | Az 38 T-201 |
| 20 | Orucov Oruc Baba | Torpaqkörpü | Otpresləyən | PPL-F-1,6 | QT № 380137 | |
| 21 | Həmzətov Pirmət Şixmət | Yasab | Taxıl səpən | SZU-3,6 | QT №389292 | |
| 22 | Yunusov Sultanməcid İbrahim | Çətkün | Traktor | DT-75M | TŞ №8978 | Az 38 T-119 |
| 23 | Mustafayev Nügəddin Gülməhəməd | Piral | Traktor | DT-75M | __ | Az38T-276 |

Qusar rayonunun Düztahir kənd sakini Şeydayev Elvüsal Şeyda oğluna 09.01.2005 tarixdə Qusar Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş AO 0662525 nömrəli hərbi bilet ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 16 iyun 1998-ci il tarixli 10/7 nömrəli qərarı ilə Qusar rayonunun Aşağı Ləyər kənd sakini Pirimova Rəfiqə Əmir qızına və ailə üzvlərinə verilmiş JN 311, Kod 30100018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar rayonunun Quturğan kənd sakini Ağamətov Kamil Nemət oğluna məxsus fərdi yaşayış evinə Qusar rayon Tİ və MHQ idarəsi tərəfindən mart 1989-cu ildə işlənmiş 303 inventar nömrəli 846, reyestr nömrəli qeydiyyat vəsiqəsi və texniki pasport ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin12.05.2000 tarixli 6/9 saylı qərarı ilə Qusar rayonunun Quturğan kənd sakini Ağamətov Kamil Nemət oğluna və ailə üzvlərinə verilmiş JN 026 A, Kod 30120028; JN 026 I, Kod 30120028; JN 026 E, Kod 30120028 olan Torpağın mülkiyyətə verilməsinə lair Şəhadətnamələr ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar rayonu Qalacıq kənd sakini Hacımuradov Sudyabəy Balabəy oğluna məxsus Qalacıq kəndində yerləşən fərdi yaşayış evinə Abşeron MBTİ tərəfindən aprel 1989-cu il tarixdə işlənmiş 116 nömrəli qeydiyyat vəsiqəsi ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar şəhəri T.İsmayılov küçəsi, 15 ünvanında yerləşən fərdi yaşayış evinə dair Qusar rayon Tİ və MHQ idarəsi tərəfindən Nəbiyeva Zöhrə Məmməd qızının adına verilmiş 121 reyestr nömrəli qeydiyyat vəsiqəsi ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 28.06.02 tarixli, 4/1 saylı qərarı və DNK-nun 23.03.06 tarixli, 4ə- 2-281 saylı müqaviləsi ilə Qusar rayonunun Uqur kənd sakini Musayev Boris Həmzət oğluna və ailə üzvlərinə verilmiş JN 281, Kod 30118028 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 16.06.1998-ci il tarixli, 10/2 saylı qərarı və Məhkəmənin 11 aprel 2006-il tarixli, 2-291a saylı qətnaməsi ilə Qusar rayonunun Nəcəfkəndoba kənd sakini Əliyarov Firuddin Əliyar oğluna və ailə üzvlərinə verilmiş JN 234, Kod 30108038 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar rayon Tİ və MHQ idarəsi tərəfindən Qusar şəhəri Heydər Əliyev küçəsi, 81 ünvanında yerləşən fərdi yaşayış evinə dair 185 reyestr nömrəli qeydiyyat vəsiqəsi ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 11 dekabr 1997-ci il tarixli, 17/2 nömrəli qərarı ilə Qusar rayonunun Avaranqışlaq kənd sakini Tağıyev Qafar Seyfulla oğluna və ailə üzvlərinə verilmiş JN 0081, Kod 30103028 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 10 aprel 1998-ci il tarixli, 15 nömrəli qərarı ilə Qusar rayonunun Əcəxur kənd sakini Əlixanov Gülverdi Əmircan oğluna və ailə üzvlərinə verilmiş JN 0042, Kod 30104018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar rayonunun Xuray kənd sakini Ağamuradov Şeyda Şövlət oğluna məxsus Qusar rayonunun Xuray kəndində yerləşən fərdi yaşayış evinə Qusar rayon Tİ və MHQ idarəsi tərəfindən 620 reyestr nömrəli qeydiyyat vəsiqəsi ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 12 may 2000-ci il tarixli, 12/8 saylı qərarı ilə Qusar rayonunun Köhnə Xudat kənd sakini Ömərov Rüfət Qadir oğluna və ailə üzvlərinə verilmiş JN 356 F, Kod 30116018 olan Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 28 iyun 2002-ci il tarixli, 4/1 saylı qərarı ilə Qusar rayonunun Ukur kənd sakini Əliyarov Əlimət Balaməhəmməd oğluna və ailə üzvlərinə verilmiş JN 0099, Kod 30118028 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 12 avqust 1999-cu il tarixli, 10/4 saylı qərarı ilə Qusar rayonunun Bala Qusar kənd sakini Seyidova Ramilə Ələddin qızına verilmiş JN 0087, Kod 30106018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 12 avqust 1999-cu il tarixli, 10/4 saylı qərarı ilə Qusar rayonunun Bala Qusar kənd sakini Seyidov Mirzəmməd Şixbala oğluna və ailə üzvlərinə verilmiş JN 0085, Kod 30106018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 03.06.1998-ci il tarixli, 9/4 və Qusar r. Məhkəməsinin 11.04.2006-il tarixli, 2-295 saylı Qətnaməsi ilə Qusar rayonunun Yuxarı Kalunxur kənd sakini Qədimov Nəcəf Xələf oğluna və ailə üzvlərinə verilmiş JN 325, Kod 30125018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 14 iyun 1998-ci il tarixli, 10/8 nömrəli qərarı ilə Qusar rayonunun Düztahir kənd sakini Hacıbabayeva Nəzakət Firuddin qızına və ailə üzvlərinə verilmiş JN 258 B, Kod 30112018 olan Torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 14.07.2000-tarixli, 08/03 saylı qərarı ilə Qusar rayonunun Düztahir kənd sakini Şahnamazov Kərim Əmirmət oğluna və ailə üzvlərinə verilmiş JN 240, Kod 30112018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 16.06.1998 tarixli, 10/5 saylı qərarı ilə Qusar rayonunun Urva kənd sakini Rəfixanova Marusa Beydi qızına verilmiş JN 353 A, Kod 30121018 olan Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə ***itdiyi üçün*** etibarsız sayılır.

Minəxür kənd sakini Mamaliyev Şahin Fərhad oğluna 23.07.2015 tarixdə SHXÇDX Qusar Rayon şöbəsi tərəfindən verilmiş SX №0284868 nömrəli vəsiqə ***itdiyi üçün*** etibarsız sayılır.

Vidadi Sevzixanov "Qusar" qəzetinin kollektivi adından Tahirovlar ailəsinə əzizləri **Vaqif Hacıbəg oğlunun** vəfatı ilə bağlı ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Direktor Zakim Zərbəliyev Kuzun kənd tam orta məktəbinin kollektivi adından **Bəxtiyar Gülməmməd oğlunun** vəfatı ilə bağlı ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Direktor Zakim Zərbəliyev Kuzun kənd tam orta məktəbinin kollektivi adından **Abumirzə Əmirhəmzə oğlunun** vəfatı ilə bağlı ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Vidadi Sevzixanov "Qusar" qəzetinin kollektivi adından Pirəliyevlər ailəsinə əzizləri **Bəxtiyar Gülməmməd oğlunun** vəfatı ilə bağlı ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Əvəcüq kənd tam orta məktəbinin kollektivi məktəbin direktoru Zərifə Saruxanovaya qardaşı **Tofik Salat oğlunun** vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

Direktor Zahid Pirvələdov Dair Şahbazov adına Hil sirt kənd məktəbinin kollektivi adından Sədifə, Tənzifət və Gülya Saruxanovalara əzizləri **Tofik Salat oğlunun** vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Elşad Əlimuradov kollektivi adından iş yoldaşları Nadir Sevzixanova atası **Sabir Saruxan oğlunun** vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Elşad Əlimuradov kollektivi adından iş yoldaşları Yusif Xəncəlova anası **Gülxanım Seyidmət qızının** vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

Baş redaktor Vidadi SEVZİXANOV

Hesab № "Kapitalbank"da: AZ 88 AİİB 33010019444800204148. VÖEN 4700063311.

Tiraj 500 Sifariş 983 Qiyməti sərbəst.

"Qusar"ın kompüter mərkəzində yığılaraq səhifələnib, "Azərbaycan" Nəşriyyatında çap olunub.

Faktlara görə yazı müəllifləri, elanlara görə sifarişçilər cavabdehdirlər. Əlyazmalara şərh verilmir və onlar qaytarılmır.

Ünvan: AZ.3800, Qusar şəhəri, Fəxrəddin Musayev küçəsi 41. ☎☎ 385-23-83; 385-23-86; qusar-redak1@mail.ru